Azad Azərbaycan



9 fevral / 2021

# Vətənin hər bir qarış torpağı Onlar üçün əziz idi

## Şəhid əsgər Masim Qurbanov

**Masim Hafiz oğlu Qurbanov 7 yanvar 2001-ci ildə Masallı rayonunun Ərəb kəndində anadan olub.**



**2008-2017-ci illərdə Ərəb kənd ümumi orta məktəbində təhsil alıb. 2019-cu ilin yanvar ayında Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrinin birində müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra könüllü olaraq Vətən müharibəsinə yollanıb.**

Azərbaycan Ordusunun əsgəri Masim Hafiz oğlu Qurbanov 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

İgid döyüşçü Qubadlı istiqamətində gedən döyüşlərdə düşmən güllləsinə tuş gəlib, şəhidlik zirvəsinə ucalıb. Şəhidin nəşi 10 yanvar 2021-ci il tarixdə doğulduğu Masallı rayonunun Ərəb kənd qəbirstanlığında torpağa tapşırılıb. Subay idi.

**Qeyd edək ki, Şəhid Masimin atası Hafiz Qurbanov Birinci Qarabağ müharibəsi döyüşlərinin iştirakçısı olmuş, II qrup Qarabağ müharibəsi əlilidir.**

## Şəhid çavuş Cavad İbadov

**Cavad Cabir oğlu İbadov 1996-cı ildə dekabrın 10-da Masallı şəhərində doğulub. 2002-ci ildə Masallı şəhər Sakit Tağıyev adına 4 nömrəli tam orta məktəbinin birinci sinfinə daxil olub və 2013-ci ildə həmin məktəbi bitirib. Orta məktəbi başa vurduqdan sonra, 2014-cü ildə Azərbaycan Ordusunda hərbi xidmətə gedib.**

Hərbi xidmətini layiqli başa vurduqdan sonra könüllü olaraq "N" saylı hərbi hissədə və Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində MAXE kimi qulluq edib.

Azərbaycan Ordusunun Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının çavuşu MAXE (Müddətdən artıq xidmət edən hərbi qulluqçu) Cavad Cabir oğlu İbadov 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalı altında olan Füzuli rayonu istiqamətində ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak edib.



Şəhid çavuş Cavad İbadovun nəşi 29 noyabr 2020-ci il tarixdə Masallı şəhər qəbirstanlığında torpağa tapşırılıb. Subay idi.

**Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Cavad Cabir oğlu İbadov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.**

**Əlihüseyn ŞÜKÜROV**